**Cəfərov, M.** Qubadlının şad xəbərini özüm verəcəyəm // Respublika. - 2025. - 18 iyul. - **№ 146**. - S. 11.

Şəhid Həsən Süleymanov da torpaqlarımızın azad olunması uğrunda canından keçib. 44 günlük Vətən müharibəsində neçə-neçə igidlərin, qəhrəmanların şəxsi rəşadəti Azərbaycan xalqının qəhrəman xalq olduğunu bir daha sübut etdi. Elə qəhrəmanı da yaşadığı mühit yetişdirir, Vətən seçir. Bu qəhrəmanların ömür yolu nə qədər qısa olsa da, şərəfli və örnək sayılır.

Həqiqi hərbi xidmətini snayper kimi yerinə yetirən Həsən 2020-ci il 29 sentyabrda səfərbərliyə cəlb olunub. Oktyabrın 26-da Qubadlı istiqamətində gedən şiddətli döyüşlərdə şəhid olub. Qəhrəmanımız Ağcabədi rayonunun Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Şəhidimizin anası Süleymanova Sürəyya oğlunun kiçik yaşlarından sakit uşaq olduğunu deyir: "Uşaq vaxtı sakit və nümunəvi şagird olub, məktəbdə müəllimlər onun haqda yüksək fikirlərdə olublar. Evin tək oğlu olmasına baxmayaraq, dəcəlliyi yox idi. Hərbi xidmətə gedəndə də mənə təsəlli verdi ki, qayıdacağam, narahat olma. Amma qayıda bilmədi. Şəhid olduğu gün oğlumun həm də toy günü idi. Döyüş yoldaşlarından biri başsağlığına gəlmişdi. Dedi ki, məni xilas edib özü şəhid oldu. Çox ağlayırdı deyə ətraflı təfərrüatları öyrənə bilmədim. Bizdə vətənpərvərlik, Vətən eşqi irsidir. Həsən atasının əmisinin adını daşıyır. O da İkinci Dünya müharibəsi zamanı şəhid olub. Deyirlər, ad sahibinə bənzəyər. Yəqin bizdə də belə olub".

Həsəni hərbi xidmətə yola salan ailə dostu Rövlan Mehdiyev deyir ki, şəhidimizi 10 yaşından bəri tanıyır: "Həsən öz adı ilə fəxr edirdi. Körpə yaşlarından Vətənə bağlı bir insan olub. Hər zaman deyirdi ki, Şəhidlər xiyabanı tərəfə gedəndə kədərlənirəm, Ali Baş Komandanımız əmr versə, könüllü olaraq müharibədə iştirak edəcəyəm. Həmin gün təsadüfən mən onlarda idim. Həsən tələsik qapıdan içəri daxil oldu, gözləri həm gülürdü, həm işıq saçırdı. Anasını çağırdı, hərbi biletini istədi. Mən yaxınlaşıb hərbi bileti nə üçün istədiyini soruşdum. Gülərək cavab verdi ki, gedirəm müharibəyə, gedirsən, gəl. Qeydiyyatdan keçəndən sonra Həsənin gözlədiyi gün gəldi. Çağırış vərəqəsi gəldi. Bu vaxt Həsən sahədə imiş. Zəng edib evə çağırıblar. Atası İsmayıl kişi də məni çağırdı ki, Həsən cəbhəyə gedir, bizə gəl. Bir az oturmuşduq ki, Sürəyya xanım yemək gətirdi. Amma Həsən dedi ki, mən naharımı Qarabağda edəcəyəm. Həyat yoldaşını çağıraraq üzüyünü çıxarıb ona verdi. Evdən tələsik çıxıb Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinə yola düşdü. 3 gün sonra hərbi hissəyə görüşə getdim. Hərbi formanı geyinmişdi. Mənə gülərək dedi ki, gözlədiyim gün gəlib, 2 günə Qarabağa gedirik. O, cəbhəyə getdiyi gündən cəsurcasına vuruşub. Arada danışanda deyirdi ki, məqsəd irəli getməkdir, narahat olmayın, snayper fəaliyyətimi davam etdirirəm. Şəhid olmamışdan bir gün əvvəl danışanda dedi ki, sabah Qubadlının şad xəbərini sənə özüm verəcəyəm. Təəssüf ki, şad xəbər yerinə acı xəbərini eşitdim...".

Şəhidin Vətənə əmanət iki övladı qalıb: Hüseyn və Fatimə. Həsən ölümündən sonra Prezident İlham Əliyevin Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə də təltif edilib.